**Elektron cihazları necə seçməli...**

*Saxta və keyfiyyətsiz cihazlar təhlükə mənbəyidir*

«Ticarət mərkəzlərinin birindən qiymətini münasib görüb ütü aldım. Lakin bir ay istifadə etməmiş ütü heç bir səbəb olmadan tüstülənərək yandı. Yaxşı ki, evdən tez kənarlaşdıra bildim, ev də yana bilərdi». Redaksiyamıza müraciət edən Hicran Həsənovanın başına gələn bu hadisə çoxumuza tanış gələ bilər. Hər gün bazara çıxarılan yeni-yeni cihazlar görünüşləri ilə göz oxşasa da, seçim zamanı istehlakçıların aldanmasına səbəb olur və nəticədə xoşagəlməz hadisələr baş verir. Ehtiyatsızlıqdan və ya keyfiyyətsiz məhsulun törətdiyi problemlərdən qaynaqlanan bu tip hadisələrdən qorunmağın bir yolu da istehlakçıların maarifləndirilməsindən keçir.

***İstehlakçılar nələrə fikir verməlidirlər?***

Azad İstehlakçılar Birliyinin (AİB) sədri Eyyub Hüseynov bildirir ki, elektron və ya elektrik cihazlar alarkən istehlakçılar üzərində istehsalçı müəssisə barədə heç bir məlumat göstərilməmiş, mənşəyi bəlli olmayan müxtəlif çeşidli malları almaqdan imtina etməlidirlər. Çünki bu, insan həyatı üçün təhlükəli ola bilər.

Onun sözlərinə görə, elektron cihazlarda yaranan problemlərlə bağlı istehlakçılardan AİB-yə çoxlu şikayətlər daxil olur. İstehlakçıların bu sahədə düzgün seçim etmələri və özlərini təhlükələrdən qorumaları üçün diqqət yetirməli olduqları bir sıra məsələlər var. Məsələn, istehlakçılar elektron cihaz alarkən malın zəmanət talonunu əldə etməlidirlər: «Elektron cihazların hamısına müəyyən zəmanət müddəti verilir. Bu zəmanət talonunda mütləq satıcının, məsul şəxsin imzası və möhürü, eləcə də servis mərkəzinin ünvanı və telefonu olmalıdır. Bir məsələni də deyim ki, əgər regionda yaşayan istehlakçı gəlib paytaxtdan elekron cihaz alırsa, aldığı cihazın yaşadığı yerdə servis mərkəzinin olub-olmaması ilə maraqlanmalıdır. Regionda servis mərkəzi yoxdursa, həmin malı almaqdan imtina etmək məsləhətdir. Çünki hər hansı problem yaranarkən regiondan paytaxta gəlmək həmin insan üçün əlavə xərclərə səbəb olacaq».

E.Hüseynov istehlakçıların elektron cihaz alan zaman tələsməmələrini məsləhət görür. Bildirir ki, cihaz alınmadan öncə onun bütün funksiyaları öyrənilməli, bu barədə satıcıdan mütləq zəruri məlumat alınmalıdır. «Çox vaxt istehlakçılar malı alarkən heç bir yoxlama etmədən satıcıların dedikləri sözlərə inanırlar. Evə apardıqdan sonra problemlə üzləşməmək üçün istehlakçılar malı yerindəcə mütləq özləri yoxlamalıdırlar».

***Nazirlər Kabinetinin qərarı var ki...***

Nazirlər Kabinetinin qərarı ilə bütün elektron cihazlar məcburi sertifikatlaşdırılmalıdır. «İstehlakçıların hüquqi var ki, malın məcburi sertifikatlaşdırılması barədə sənədi tələb etsinlər. Satıcı həmin sənədi istehlakçıya göstərməyə borcludur».

E.Hüseynov diqqət çəkməli olan əsas məsələlərdən birinə də toxunaraq bildirdi ki, elektron cihazları, o cümlədən də televizorları gözləmə rejimində qoyub evi tərk etmək təhlükəlidir. Çünki müxtəlif səbəblərə görə gözləmə rejimində olan bir çox elektron cihazların evdə yanğın törətmək təhlükəsi var».

E.Hüseynov «İstehlakçıların hüquqlarının müdafiəsi haqqında» Qanuna istinad edərək bildirdi ki, alıcıların tələbatını ödəməyən mal 14 gün müddətində qaytarıla və ya dəyişdirilə bilər: bir şərtlə ki, istehlakçılar malı alarkən kassa çekini əldə etsinlər. Yalnız bu halda onların hüquqları qoruna bilər».

AYTƏN